**LAYİHƏ**

**“Qida təhlükəsizliyi haqqında”**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 20-ci və 26-cı bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində insanların həyatının və sağlamlığının, heyvanların sağlamlığının, istehlakçıların qanuni mənafelərinin müdafiəsi və ətraf mühitin mühafizəsi üçün qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

## 1-ci fəsil
## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

1.1.1. qida məhsulları - insanların qidalanması üçün nəzərdə tutulan emal olunmamış, yarımemal olunmuş və ya tam emal olunmuş məhsullar, o cümlədən xüsusi təyinatlı qida məhsulları, qida əlavələri, biloji aktiv qida maddələri, qida xammalı, içkilər (spirtli və spirtsiz), içməli su (qablaşdırılmış), saqqız və qida məhsullarının ilkin istehsalı və emalı zamanı qida məhsullarına əlavə edilən su və digər maddələr. Bu anlayışa yem məhsulları, insan istehlakı üçün nəzərdə tutulmamış diri heyvanlar, məhsulun yığımına qədər bitkilər, dərman vasitələri, ətriyyat-kosmetik vasitələr, tütün və tütün məhsulları, narkotik və psixotrop maddələr və çirkləndirici maddələr daxil deyil;

1.1.2. qida xammalı - qida məhsullarının emalı üçün istifadə olunan bitki, heyvan, mikrobioloji, mineral, süni və biotexnoloji mənşəli maddələr və su;

1.1.3. heyvan mənşəli qida məhsulu – insanların qidalanması üçün yararlı olan ət, balıq və balıq kürüsü, molyuska, xərçəngkimilər və digər suda yaşayan onurğasızlar (dəniz məhsulları), yumurta, bal, süd və emal yolu ilə onlardan alınan məhsullar;

1.1.4. bitki mənşəli qida məhsulu – insanların qidalanması üçün yararlı olan göbələk, meyvə, tərəvəz, digər bitki mənşəli məhsullar və emal yolu ilə onlardan alınan məhsullar;

1.1.5. qarışıq tərkibli qida məhsulu - insan istehlakı üçün nəzərdə tutulmuş və tərkibində heyvan və bitki mənşəli məhsulların olduğu qida məhsulu;

1.1.6. zənginləşdirilən (fortifikasiya olunan) qida məhsulları -məhsulların qida dəyərinin yüksəldilməsi və nutriyent (vitamin, mineral, zülal) çatışmazlığı xəstəliklərinin profilaktikası məqsədi ilə məhsullara müəyyən xüsusiyyətlərin verilməsi üçün onlarda əvvəldən olmayan və ya kifayət qədər olmayan, yaxud emal prosesində (mərhələsində) itirilmiş bir və ya daha artıq zəruri inqrediyentin və digər maddələrin əlavə olunduğu qida məhsulları;

1.1.7. yeni növ qida məhsulları - Azərbaycan Respublikasının ərazisində insan istehlakı üçün əvvəllər istifadə olunmamış, emal prosesi nəticəsində yeni və ya dəyişdirilmiş molekulyar struktura malik olan qida məhsulları;

1.1.8. qida əlavələri - qida məhsuluna hər hansı bir texnoloji (o cümlədən, orqanoleptik) məqsədlə əlavə olunan, qida dəyərinin olub-olmamasından asılı olmayaraq, adətən qida şəklində və ya qida məhsullarının səciyyəvi tərkib hissəsi kimi istehlak olunmayan, birbaşa və həmçinin dolayı yolla qida məhsullarının tərkib hissəsi ola biləcək və ya onun

xüsusiyyətlərinə (rənginə, dadına və s.) təsir edə biləcək hər hansı maddə. Bu anlayışa çirkləndirici maddələr və ya qida məhsullarının qida dəyərini saxlamaq və ya artırmaq üçün əlavə olunan maddələr (vitaminlər, mikroelementlər, amin turşuları) daxil deyildir;

1.1.9. bioloji aktiv qida maddələri - qida rasionunu zənginləşdirmək məqsədi ilə nəzərdə tutulmuş, qidalandırıcı və fizioloji təsirə malik olan nutriyent və digər bioaktiv maddələrdən hazırlanmış, gündəlik qəbuletmə dozası müəyyənləşdirilmiş (kapsul, tablet, ampul, damcı və digər analoji formada), bir və ya bir neçə qidalandırıcı maddə;

1.1.10. inqrediyent - qida məhsullarının hazırlanmasında istifadə olunan yaxud hazır məhsulun tərkibində ilkin və ya dəyişilmiş formada mövcud olan maddələr, heyvan, bitki, mikrobioloji, mineral mənşəli məhsullar, o cümlədən qida əlavələri;

1.1.11. qida məhsulları ilə təmasda olan material və məmulatlar - qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərində istifadə edilən, qida məhsulu ilə birbaşa və dolayı təmasda olan material və məmulatlar, o cümlədən texnoloji avadanlıq, cihaz və qurğular, tara və qablaşdırma materialları. Bu anlayışa içməli suyun nəqli üçün istifadə olunan avadanlıqlar daxil deyil;

1.1.12. ilkin istehsal - məhsulun yığılması, südün sağılması, həmçinin heyvanların kəsiminə qədər heyvan mənşəli məhsulların əldə edilməsi də daxil olmaqla ilkin istehsal məhsullarının istehsalı, becərilməsi, çeşidlənməsi, habelə çöl heyvanlarının, balıqların və dəniz məhsullarının ovlanması və yabanı məhsulların yığılması;

1.1.13. ilkin istehsal məhsulları - ilkin istehsaldan, o cümlədən torpaqdan və diri heyvandan alınan məhsullar, o cümlədən balıq və balıq kürüsü, dəniz məhsulları, bal, ovlanmış çöl heyvanları və yığılmış yabanı məhsullar;

1.1.14. qida məhsullarının istehsalı (emalı) (bundan sonra - emalı) - ilkin istehsal məhsulundan istilik, qurutma, bişirmə, marinadetmə, ekstraksiya, sıxlaşdırma və ya onların kombinasiyasından ibarət hər hansı proses vasitəsilə qida məhsullarının hazırlanması, bununla bağlı çəkilib bükülmə, qablaşdırma, markalanma, etiketlənmə, habelə qida məhsullarının istehsaldaxili saxlanma və daşınma prosesləri;

1.1.15. qida məhsullarının dövriyyəsi - qida məhsullarının saxlanması, daşınması, idxalı və ixracı, satınalınması, satışı və ya tədarükü, o cümlədən qida məhsullarının ictimai iaşə, topdan və pərakəndə ticarət obyektləri tərəfindən satışı, ictimai iaşə və xidmət obyektlərində istifadəsi;

1.1.16. qida məhsullarının utilizasiyası – qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə cavab verməyən qida məhsullarının nəzərdə tutulmuş təyinatından başqa bir təyinat üçün istifadə etmək məqsədilə texnoloji emalı, yaxud digər məqsədlərlə istifadəsi;

1.1.17. qida məhsullarının məhv edilməsi - istifadəyə yarasız və təhlükəli qida məhsullarının hər hansı formada istifadəsini mümkünsüz edən və insan həyatı və sağlamlığına, heyvan sağlamlığına və ətraf mühitə zərərli təsirini istisna edən vəziyyətə gətirilməsi;

1.1.18. qida məhsulunun bazara yerləşdirilməsi - qida məhsulunun kommersiya və ya qeyri- kommersiya məqsədləri ilə satışı, satış məqsədi ilə saxlanması və paylanması;

1.1.19. qida zənciri - qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinin məcmusu;

1.1.20. qida biznesi – qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə bağlı həyata keçirilən sahibkarlıq fəaliyyəti;

1.1.21. qida biznesi subyektləri – qida biznesi ilə məşğul olan və qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə cavabdeh şəxs, o cümlədən fiziki və ya hüquqi şəxs, bələdiyyə, dövlət təşkilatları və qurumları;

1.1.22. qida biznesi obyektləri (bundan sonra - qida obyektləri) - qida biznesinin həyata keçirildiyi məkan, sahə, bina, nəqliyyat vasitəsi və digər daşınar vasitələr;

1.1.23. qida məhsullarının izlənilməsi - qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası mərhələlərində qida məhsulunun, qida məhsulları əldə edilən heyvanların yaxud qida məhsullarına əlavə edilməsi nəzərdə tutulan maddələrin hərəkətinin izlənməsi;

1.1.24. qida təhlükəsizliyi - qida məhsullarının qida təhlükəsizliyi göstəricilərinə riayət edilməklə, ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası mərhələlərində, habelə qida məhsullarının istehlakı (qəbulu) zamanı insanların, o cümlədən gələcək nəsillərin həyat və sağlamlığına zərər vurulması ilə bağlı təhlükənin olmaması;

1.1.25. qida təhlükəsizliyi göstəriciləri - gigiyenik normativlər, qalıqların və çirkləndiricilərin yolverilən maksimum miqdarı, gündəlik qəbul hədləri və digər parametrlər də daxil olmaqla, insan həyatının və sağlamlığının qorunmasını təmin edən, elmi cəhətdən əsaslandırılmış və normalaşdırılmış göstəricilər;

1.1.26. minimum keyfiyyət göstəriciləri - qida məhsullarının insanların istifadəsinə yararlı olmasına zəmanət verən orqanaleptik, fiziki, kimyəvi və digər xüsusiyyətləri;

1.1.27. qabaqcıl fəaliyyət kodeksi - qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin daha yaxşı yerinə yetirilməsi, qida və yem məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi məqsədi ilə hazırlanan və qida biznesi subyektləri tərəfindən tətbiq edilən təcrübələr, o cümlədən qabaqcıl gigiyena təcrübələri, qabaqcıl istehsal təcrübələri və qabaqcıl kənd təsərrüfatı təcrübələri;

1.1.28. qida məhsullarının partiyası - eyni ilkin istehsal və emal dövrü ərzində eyni yerdə ilkin istehsal və emal olunan, eyni şərtlərlə texnoloji proses nəticəsində əldə edilən identifikasiya olunmuş məhsulların bir qrupu və ya dəsti;

1.1.29. çirkləndirici maddə - qida məhsullarının təhlükəsizliyinə və ya yararlığına təhlükə yarada bilən, qida məhsullarının ilkin istehsalı, emalı və dövriyyəsi zamanı qida məhsullarının tərkibinə məqsədli şəkildə daxil edilməyən və ya ətraf mühitdən keçən maddə və kənar cisim;

1.1.30. qalıqlar - baytarlıq preparatlarının, aqrokimyəvi maddələrin, bitki mühafizə vasitələrinin və çirkləndirici maddələrin qida məhsullarındakı qalıqları;

1.1.31. yararlılıq müddəti - saxlanma şərtlərinə əməl edilməklə, qida məhsullarının qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla tətbiq edilən təhlükəsizlik tələblərinə uyğunluğunun tam saxlanılması müddəti;

1.1.32. risk - qida və yem məhsulunun insan həyatına və sağlamlığına və heyvan sağlamlığına mənfi təsir ehtimalı və həmin təsirin qida məhsullarında yer alan təhlükəli amillərindən yaranan ağırlıq dərəcəsi;

1.1.33. risklərin təhlili – insanların həyat və sağlamlığının və heyvanların sağlamlığının qorunmasını təmin etmək məqsədi ilə riskin qiymətləndirilməsi, riskin idarə edilməsi və risk haqqında məlumatlandırma kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan fəaliyyətləri əhatə edən proses;

1.1.34. riskin qiymətləndirilməsi - təhlükənin müəyyən edilməsi, təhlükənin xarakterizə edilməsi, təhlükənin yayılma ehtimalının qiymətləndirilməsi və riskin kateqoriyasının (aşağı, orta və yüksək) müəyyən edilməsi kimi 4 mərhələdən ibarət proses;

1.1.35. riskin idarə edilməsi – riskin qiymətləndirilməsi nəticələri əsasında və maraqlı tərəflərlə məsləhətləşməklə riskin qarşısının alınması, azaldılması (məhdudlaşdırılması) və aradan qaldırılması üzrə tədbirlərin müəyyən olunması və həyata keçirilməsi;

1.1.36. risk haqqında məlumatlandırma- riskin təhlili çərçivəsində mövcud və potensial təhlükələr və risklər barədə qida biznesi subyektləri, istehlakçılar, dövlət orqanları, habelə digər maraqlı tərəflər arasında məlumatların mübadiləsi;

1.1.37. saxtalaşdırılmış qida məhsulları - bilərəkdən dəyişdirilmiş, istehlakçıları aldatmaqla barəsində saxta və (və ya) yalan (düzgün olmayan) məlumat verilən qida məhsulları;

1.1.38. kritik nəzarət nöqtəsi - qida məhsullarının ilkin istehsalı və emalı zamanı yaranan təhlükə amillərinin əvvəlcədən qarşının alınması, məqbul səviyyəyə qədər azaldılması (məhdudlaşdırılması) və ya aradan qaldırılması üçün nəzarət tədbirlərinin tətbiq edilə biləcəyi ilkin istehsal və ya emal mərhələsi;

1.1.39. təhlükə - qida və yem məhsullarında insan həyatı və sağlamlığına və heyvan sağlamlığına mənfi təsir göstərmək gücündə olan bioloji, kimyəvi və fiziki maddələrin mövcudluğu;

1.1.40. Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələri (HACCP) -qida təhlükəsizliyinin idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edən təhlükə amillərinin müəyyən edilməsi, qiymətləndirilməsi və onlara nəzarət olunması sistemi;

1.1.41. marka - qida məhsullarının üzərinə, sənədlərə, yaddaş vərəqələrinə (içlik vərəqlərə), etiketlərə, kontr - etiketlərə, yuxarı etiketlərə, yarlıklara, yapışdırılan vərəqlərə (stikerlərə), istehlak tarasına (qablara) vurulan, istehlakçı üçün məhsul və istehsalçı barəsində informasiya daşıyan mətn, nişan (əmtəə və digər), şərti işarələr və rəsmlər;

1.1.42. etiket - qida məhsuluna aid olan və onu müşayiət edən tara, sənəd, nişan, halqa, yaxud qapaqda yerləşən söz, əmtəə nişanı, coğrafi göstərici, şəkil və ya rəmz;

1.1.43. qablaşdırma - qida məhsullarına əmtəə görünüşü verən, məhsulun tam və ya qismən örtülməsini təmin edən, məhsulun tərkibini açılmamış və tamlığı pozulmamış vəziyyətdə qoruyan vasitə, daşınma məqsədilə istifadə olunan tara;

1.1.44. yem məhsulları - heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddəllər və yem əlavələri;

1.1.45. yem əlavələri – yem məhsuluna və suya məqsədli şəkildə əlavə olunan, heyvanların rasionunda çatışmayan qida maddələrinin, mineralların və vitaminlərin mənbəyi kimi istifadə olunan üzvi, mineral və (və ya) sintetik mənşəli maddələr;

1.1.46. genetik modifikasiya olunmuş orqanizmlər - müasir biotexnoloji və ya gen mühəndisliyi üsulları ilə yaradılan, ənənəvi seleksiyada alınması mümkün olmayan, genetik materialın yeni kombinasiyasına malik və bu kombinasiyanı irsən ötürmək qabiliyyətinə qadir olan canlı orqanizmlər (bitki, heyvan və mikroorqanizmlər);

1.1.47. mineral su - insan orqanizminə müalicəvi təsirə malik yeraltı yataqlardan hasil edilən və ya təbii yolla süxurlardan çıxan mineral komponentlərlə zəngin olan təbii su;

1.1.48. qida məhsulunu geri çağırma - qida məhsulunun istehlakçılardan götürülməsi, habelə bazarlardan və digər satış obyektlərindən çıxarılması üçün həyata keçirilən tədbir;

1.1.49. qida məhsulunu yığışdırılması – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təhlükəli qida məhsulunun dövriyyədən çıxarılması;

1.1.50. qida təhlükəsizliyi sahəsində xarici səlahiyyətli orqan (bundan sonra - səlahiyyətli orqan) - Azərbaycan Respublikasının ərazisinə qida və yem məhsulları idxal olunduğu və ya Azərbaycan Respublikasının ərazisindən qida və yem məhsulunun ixrac olunduğu ölkənin qida təhlükəsizliyinə məsul səlahiyyətli qurum.

**Maddə 2. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun Azərbaycan Respublikasında ilkin istehsal və emal edilən, Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş və Azərbaycan Respublikasının ərazisindən tranzit keçən qida və yem məhsullarına, habelə qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi proseslərinə (mərhələlərinə) şamil olunur.

3.2. Bu Qanunun ev şəraitində və ya ilkin istehsal çərçivəsində şəxsi istehlak üçün nəzərdə hazırlanan qida məhsullarına şamil olunmur.

## 2-ci fəsil
## Qida təhlükəsizliyi sahəsində dövlət tənzimlənməsi

**Maddə 4. Qida təhlükəsizliyi sahəsində dövlət tənzimlənməsinin məqsədləri**

4.1. Qida təhlükəsizliyi sahəsində dövlət tənzimlənməsinin məqsədləri aşağıdakılardır:

4.1.1. insan həyatının və sağlamlığının, heyvan sağlamlığının və ətraf mühitin mühafizəsi, həmçinin istehlakçıların qanuni mənafelərinin müdafiəsi;

4.1.2. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində qanunvericiliyin beynəlxalq standartlara, norma və qaydalara uyğunlaşdırılması;

4.1.3. yerli qida və yem məhsullarının rəqabət qabiliyyətliliyinin və ixrac potensialının artırılması;

4.1.4. qida və yem məhsullarının beynəlxalq ticarətinin inkişafı üçün şərait yaradılması.

4.1.5. qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası sahəsində sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması.

**Maddə 5. Qida təhlükəsizliyi sahəsində dövlətin vəzifələri**

5.1. Qida təhlükəsizliyi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

5.1.1. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində dövlət siyasətinin formalaşdırılması və dövlət tənzimlənməsinin həyata keçirilməsi;

5.1.2. qida və yem məhsullarının təhlükəsizliyinin təmin olunması məqsədilə dövlət proqramlarının, elmi-texniki proqramların hazırlanması və həyata keçirilməsi;

5.1.3. Azərbaycan Respublikasının qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi üzrə beynəlxalq təşkilatlarda təmsil olunması, həmin təşkilatların və onların üzv dövlətlərinin qida təhlükəsizliyi sahəsində qabaqcıl təcrübələrinin öyrənilməsi və Azərbaycan Respublikasınında tətbiqi imkanlarının araşdırılması;

5.1.4. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində normativ tənzimlənmənin həyata keçirilməsi;

5.1.5. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində elmi cəhətdən əsaslandırılmış risklərin təhlili üzrə işlərin təşkili və həyata keçirilməsi;

5.1.6. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq və sertifikatlaşdırmanın həyata keçirilməsi;

5.1.7. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə riayət olunmasına dövlət nəzarətinin təşkili və həyata keçirilməsi;

5.1.8. risklərin təhlili qaydalarını müəyyən edilməsi;

5.1.9. istehlakçılara qida məhsulları haqqında verilən məlumatlara dair tələbləri və həmin məlumatların verilməsi qaydalarını müəyyən edilməsi;

5.1.10. insan sağlamlığının mühafizəsinin zəruri səviyyəsini təmin etmək üçün qida təhlükəsizliyi tələblərinin müəyyən edilməsi;

5.1.11. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu qaydalarının müəyyən edilməsi;

5.1.12. genetik modifikasiya olunmuş orqanizmlərin, tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan yem məhsullarının və tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən istehsal edilən inqredientlər olan yem məhsullarının dövlət qeydiyyatının aparılması qaydalarının müəyyən edilməsi;

5.1.13. qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya) qaydasının müəyyən edilməsi;

5.1.14. qida məhsullarının daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin qeydiyyata alınması və onlara xüsusi pasport verilməsi qaydalarını müəyyən edilməsi;

5.1.15. Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının idxalına dair tələblərin və idxalı qaydalarının müəyyən edilməsi;

5.1.16. qida obyektlərinin qeydiyyatı və təsdiqi qaydalarının müəyyən edilməsi;

5.1.17. ayrı-ayrı məhsulların dövlət qeydiyyatının aparılması qaydalarının müəyyən edilməsi;

5.1.18. qida məhsullarına sağlamlıq sertifikatlarının verilməsi qaydalarının və formasının müəyyən edilməsi;

5.1.19. qida təhlükəsizliyinə risk əsaslı dövlət nəzarətinin aparılması qaydasının müəyyən edilməsi;

5.1.20. qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə vahid siyahısını müəyyən edilməsi;

5.1.21. qida məhsullarının izlənilməsi qaydarının müəyyən edilməsi;

5.1.22. qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğun olmayan və təhlükəli qida və yem məhsullarının geri çağrılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi qaydasının müəyyən edilməsi;

## 3-cü fəsil
## Qida təhlükəsizliyinin prinsipləri

### Maddə 6. Elmi sübutlara əsaslanan risklərin təhlili

6.1. İnsanların həyat və sağlamlığının, heyvanların sağlamlığının və ətraf mühitin mühafizəsi təmin etmək məqsədi ilə qida təhlükəsizliyi sahəsində dövlət tənzimlənməsi elmi sübutlardan və müvafiq beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş standartlardan, tövsiyələrdən və qaydalardan istifadə etməklə riskin qiymətləndirilməsi, riskin idarə edilməsi və risk haqqında məlumatlandırma fəaliyyətlərini özündə ehtiva edən riskin təhlili prinsipinə əsaslanmalıdır.

6.2. Qida və yem məhsulunun insan həyatına və sağlamlığına, heyvan sağlamlığına və ətraf mühitə yarada biləcəyi təhlükələrə dair riskin qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

6.3. Risklərin qiymətləndirilməsi mövcud elmi məlumatlardan, müvafiq ilkin istehsal və ya emal üsullarından, yoxlama, monitorinq və auditin nəticələrindən, laboratoriya tədqiqatı üsullarından, konkret xəstəliklərin yayılma dərəcəsindən, xəstəliklərdən azad zonaların mövcudluğuna dair məlumatlardan istifadə etməklə müstəqil, qərəzsiz və şəffaf şəkildə aparılmalıdır.

6.4. Risklərin qiymətləndirilməsi aşağıdakı yollarla həyata keçirilir:

6.4.1. qida məhsulunun insan orqanizminə yarada biləcəyi təhlükələrin müəyyən edilməsi;

6.4.2. bioloji, kimyəvi və fiziki təsirlərlə əlaqədar qida məhsullarının, habelə qida mənbəyi olan heyvanların və bitkilərin insan orqanizminə yarada biləcəyi təhlükələrin qiymətləndirilməsi;

6.4.3. müəyyən olunmuş hər bir mümkün təhlükənin yayılma ehtimalının qiymətləndirilməsi;

6.4.4. müəyyən olunmuş risklərin kateqoriyasının (aşağı, orta və yüksək) təyin edilməsi, eləcə də risklərin qarşısının alınması, azaldılması (məhdudlaşdırılması) və aradan qaldırılması tədbirlərinin müəyyənləşdirilməsi.

6.5. Risklərin idarə edilməsi tədbirləri çərçivəsində risklərin qiymətləndirməsi nəticələri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risklərinin qarşısının alınması, azaldılması və aradan qaldırılması ilə bağlı tədbirlər həyata keçirilir.

6.6. Risk haqqında məlumatlandırma tədbirləri çərçivəsində qida məhsulları ilə bağlı mövcud və potensial təhlükələr barədə istehlakçılara, qida biznesi subyektlərinə, dövlət orqanlarına və digər maraqlı tərəflərə vaxtında, düzgün və ətraflı məlumat verilir.

6.7. Risklərin idarə edilməsi və risk haqqında məlumatlandırma müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

**Maddə 7. Qida təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlərin şəffaflığı**

7.1. Qida təhlükəsizliyi sahəsində normayaratma fəaliyyətinin subyekti normativ hüquqi aktların layihələri hazırlanarkən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai iştirakçılığı təmin edir.

7.2. İnsanların həyat və sağlamlığına mümkün təhlükənin qabaqcadan qarşısının alınması ilə bağlı təcili hallar istisna olmaqla, qida təhlükəsizliyi sahəsində normayaratma fəaliyyətinin subyekti "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə uyğun olaraq, qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların layihələrini "Lisenziyalar və icazələr" portalında yerləşdirmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada təqdim edir. Qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların layihələrinin "Lisenziyalar və icazələr" portalında yerləşdirilməsi və onlara dair təkliflərə baxılması "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 11.3-cü və 11.4-cü maddələrinə uyğun olaraq həyata keçirilir.

7.3. Qida və yem məhsullarının insan həyatına və sağlamlığına və heyvan sağlamlığına təhlükə törətməsi şübhəsi yaranarsa müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) risklərin dərəcəsindən asılı olaraq risklərin qarşısının alınması, azaldılması və aradan qaldırılması məqsədi ilə həyata keçirilən tədbirlər barədə ictimaiyyətə və digər maraqlı tərəflərə məlumat verməlidir.

**Maddə 8. İnsanların həyat və sağlamlığına mümkün təhlükənin qabaqcadan qarşısının alınması üçün müvəqqəti tədbirlərin tətbiqi**

8.1. Risklərin qiymətləndirilməsi zamanı insanların həyatına və sağlamlığına və heyvanların sağlamlığına təhlükə yaranmasının mümkünlüyü müəyyən olunduqda, lakin onun ağırlıq dərəcəsini qiymətləndirmək üçün elmi dəlilin kifayət etmədiyi və ya şübhələrin qaldığı hallarda, əhalinin sağlamlığının qorunması məqsədi ilə mövcud məlumatlar əsasında, o cümlədən müvafiq beynəlxalq təşkilatlar, eləcə də digər dövlətlər tərəfindən tətbiq edilən sanitariya, baytarlıq və fitosanitariya tədbirləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risklərin müvəqqəti idarə edilməsi üzrə tədbirlər həyata keçirilir.

8.2. İnsanların, heyvanların və bitkilərin həyat və sağlamlığına mümkün təhlükənin qabaqcadan qarşısının alınması məqsədi ilə risklərin idarə edilməsi istiqamətində həyata keçirilən müvəqqəti tədbirlər risklərin səviyyəsinə uyğun olmalı, əhalinin sağlamlığının qorunmasına xidmət etməli və ticarəti insan sağlamlığının mühafizəsinin zəruri səviyyəsi təmin edilməsi üçün lazım olandan daha artıq məhdudlaşdırmamalıdır.

8.3. İnsanların, heyvanların və bitkilərin həyat və sağlamlığına mümkün təhlükənin qabaqcadan qarşısının alınması məqsədi ilə risklərin idarə edilməsi ilə bağlı həyata keçirilən müvəqqəti tədbirlərə həmin təhlükə aradan qalxdıqda, risk dərəcəsi və əlavə elmi məlumatlar nəzərə alınmaqla, habelə ətraflı risk qiymətləndirilməsi aparılmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yenidən baxılmalıdır.

**Maddə 9. İstehlakçıların qanuni mənafelərinin müdafiəsi**

9.1. Bu Qanun qida məhsulları istehlakçılarının hüquqlarının və qanuni mənafelərinin müdafiəsinə, istehlakçıların qida məhsulları ilə bağlı dolğun və düzgün məlumat almasına dair tələbləri müəyyən edir.

9.2. Bu Qanun istehlakçıların qanuni mənafelərinin müdafiəsi sahəsində aşağıdakı məsələləri nəzərdə tutur:

9.2.1. qida məhsullarının təhlükəsizliyi və keyfiyyəti sahəsində sui-istifadə hallarının və ya saxtakarlığın qarşısının alınması;

9.2.2. saxtalaşdırılmış qida məhsullarının ilkin istehsalının, emalının və dövriyyəsinin qarşısının alınması;

9.2.3. istehlakçını aldadan (çaşdıran) hər hansı digər fəaliyyətin qarşısının alınması.

## 4-cü fəsil

## Qida təhlükəsizliyi sahəsində normativ tənzimləmə

**Maddə 10. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu**

10.1. Qida və yem məhsullarının təhlükəsizliyinə və minimum keyfiyyətinə, o cümlədən qida və yem məhsulları və onlarla təmasda olan material və məmulatlara, qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə dair sanitariya-gigiyena, baytarlıq, fitosanitar və ekoloji tələblər qida təhlükəsizliyinə dair texniki normativ hüquqi aktlarla müəyyən edilir.

10.2. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar muvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunda müəyyən olunmuş tələblər və qida təhlükəsizliyinin prinsipləri nəzərə alınmaqla hazırlanır.

10.3. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar bu Qanunun 10.4-cü maddəsində göstərilən hal istisna olmaqla, müvafiq beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş beynəlxalq standartlar, təlimatlar və tövsiyələr əsasında hazırlanır.

10.4. Beynəlxalq standart, təlimat və tövsiyələrin Azərbaycan Respublikasının sanitar, fitosanitar və baytarlıq xüsusiyyətləri, habelə zərərvericilərin və xəstəliklərin yayılması səbəbindən insan sağlamlığının mühafizəsinin zəruri səviyyəsini təmin etmək üçün qənaətbəxş hesab edilməməsinə və ya insan sağlamlığının mühafizəsinin daha yüksək səviyyəsinin təmin edilməsi zərurətinə dair elmi sübutlar varsa, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar həmin beynəlxalq standart, təlimat və tövsiyələrin tələblərindən fərqli tələblər müəyyən edə bilər.

10.5. Beynəlxalq standart, təlimat və tövsiyələr mövcud olmadıqda və ya insan sağlamlığının mühafizəsinin zəruri səviyyəsini təmin etmək üçün qənaətbəxş hesab edilməməsi səbəbindən həmin beynəlxalq standart, təlimat və tövsiyələrdən istifadə olunmadıqda, muvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar hazırlayarkən mövcud elmi sübutları nəzərə almaqla risklərin qiymətləndirilməsini aparmalı və texniki normativ hüquqi aktlarda risklərin qiymətləndirilməsinin nəticələrini nəzərə almalıdır.

10.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, həmin müqavilələrə üzv olan ölkələrə qida təhlükəsizliyi sahəsində hazırlanan yeni texniki normativ hüquqi aktlar haqqında bildiriş aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılmış Məlumat və Bildiriş Mərkəzi vasitəsilə göndərilir:

10.6.1. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar mövcud olan müvafiq beynəlxalq standartlara, təlimatlara, tövsiyələrə uyğun olmadıqda;

10.6.2. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanmasında istifadə etmək üçün müvafiq beynəlxalq standartlar, təlimatlar, tövsiyələr mövcud olmadıqda;

10.6.3. hazırlanan qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar ticarət tərəfdaşlarının ixrac imkanlarına təsir etdikdə;

10.7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, qida təhlükəsizliyi sahəsində təklif edilən yeni texniki normativ hüquqi aktlar haqqında bildirişin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

10.8. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici ticarət tərəfdaşı yazılı müraciət etdikdə, Məlumat və Bildiriş Mərkəzi qida məhsullarının təhlükəsizliyi sahəsində təklif edilən yeni texniki normativ hüquqi aktların layihəsini təqdim etməli və mümkün olduqda, müvafiq beynəlxalq standartlardan, təlimatlardan və tövsiyələrdən fərqlənən müddəaları göstərməlidir.

10.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici ticarət tərəfdaşı tərəfindən qida təhlükəsizliyi sahəsində təklif edilən yeni texniki normativ hüquqi akta dair təqdim edilmiş rəylər müzakirə edilməli və bu cür rəylər və müzakirələrin nəticələri yeni və ya dəyişdirilmiş texniki normativ hüquqi aktlarda nəzərə alınmalıdır.

10.10. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar hazırlanarkən onların xarici ticarəti insan sağlamlığının mühafizəsinin zəruri səviyyəsinin təmin etmək üçün tələb olunan həddən daha artıq məhdudlaşdırmaması və qida biznesi subyektlərinin fəaliyyətinə əsassız maneə yaratmaması nəzərə alınmalıdır.

10.11. Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan ölkə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarının Azərbaycan Respublikasında tələb edilən insan sağlamlığının mühafizəsini eyni və ya daha yüksək səviyyəsini təmin etdiyini sübut edərsə,

bu cür normativ aktlar Azərbaycan Respublikasında tətbiq edilən eyni texniki normativ hüquqi aktların ekvivalenti hesab edilir.

10.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar insan sağlamlığının mühafizəsinin zəruri səviyyədə təmin edilməsi üçün ölkədə ilkin istehsal və emal edilən və ya idxal edilən mallar arasında əsassız fərq qoyulmadan tətbiq edilməlidir.

10.13. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.

10.14. Qida biznesi subyektləri tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin aydın başa düşülməsi və həmin tələblərin yerinə yetirilməsinə dəstək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiqi könüllü olan qabaqcıl fəaliyyət kodeksləri qəbul edilir.

## 5-ci fəsil
## Qida təhlükəsizliyi sahəsində tələblər

### Maddə 11. Qida və yem məhsullarının təhlükəsizliyinə dair ümumi tələblər

11.1. Təhlükəli qida və yem məhsullarının ilkin istehsalı, emalı və dövriyyəsi qadağandır.

11.2. Aşağıdakı hallarda qida məhsulları təhlükəli hesab edilir:

11.2.1. qida məhsulları indiki, habelə gələcək nəsillərin həyat və sağlamlığı üçün qısamüddətli və ya uzunmüddətli dövrdə birbaşa və ya dolayı yolla zərərli olduqda;

11.2.2. qida məhsulları aşkar korlanma, dağılma, çürümə əlamətlərinin olması, habelə tərkibindəki radioloji, toksikoloji, fiziki, kimyəvi və mikrobioloji maddələrin və onların birləşmələrinin qalıq səviyyəsi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda müəyyən edilən səviyyədən artıq olması səbəbindən insan istehlakı üçün yararsız olduqda;

11.2.3. qida məhsullarının tərkibində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla qadağan olunmuş inqrediyentlər aşkarlandıqda

11.3. Aşağıdakı hallarda yem məhsulları təhlükəli hesab edilir:

11.3.1. heyvan sağlamlığına mənfi təsir göstərdikdə;

11.3.2. qida istehsal edən heyvanın məhsulunu insan istehlakı üçün yararsız etdikdə.

11.4. Qida və yem məhsullarının təhlükəliliyi müəyyən edilərkən, həmin məhsulların təyinatı üzrə qidalanma üçün istifadəyə yararsız olması, kif bağlaması, xarab olması, yad cisimlə çirklənməsi, çürüyərək çirklənməsi, habelə digər çirklənmə səbəbləri əsas götürülməlidir.

11.5. Təhlükəli hesab edilən qida və yem məhsulu bir bağlamanın, partiyanın yaxud eyni sinfə və ya təsvirə malik yükün hissəsi olduqda və qiymətləndirmə aparmaqla həmin bağlamada, partiyada və yükdə olan digər qida və yem məhsullarının təhlükəsizliyi barədə sübut tapmaq mümkün olmadıqda, həmin bağlamada, partiyada, yaxud yükdə olan bütün qida və yem məhsulları təhlükəli hesab edilir.

11.6. Qida və yem məhsullarına, o cümlədən heyvan və bitki mənşəli, habelə qarışıq tərkibli qida və yem məhsullarına, onların ilkin istehsalına, emalına və dövriyyəsinə dair gigiyenik tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 12. Xüsusi təyinatlı qida məhsullarının və bioloji aktiv qida maddələrinin təhlükəsizliyinə dair tələblər**

12.1. Xüsusi təyinatlı qida məhsullarına aşağıdakılar aiddir:

12.1.1. uşaq orqanizminin fizioloji tələbatlarına cavab verən və üç yaşına qədər uşaqların qidalanması üçün nəzərdə tutulmuş qida məhsulları;

12.1.2. gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən pəhriz qida məhsulları;

12.1.3. insan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədi ilə xüsusi qida rasionlarında istifadə olunan müalicəvi-profilaktik qida məhsulları.

12.2. Xüsusi təyinatlı qida məhsulları:

12.2.1. qida təhlükəsizliyinə dair qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməli və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alındıqdan sonra dövriyyəyə buraxılmalıdır;

12.2.2. müvafiq alıcı (istehlakçı) qruplarının fizioloji tələbatlarını təmin etməlidir;

12.2.3. tərkibindəki vitaminlərin və mineralların miqdarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hədlər çərçivəsində olmalıdır.

12.3. Xüsusi təyinatlı qida məhsullarının təhlükəsizliyinə dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

12.4. Qida biznesi subyektləri bioloji aktiv qida maddələrinin emalı zamanı yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş vitaminlərdən və minerallardan istifadə edə bilər.

12.5. Bioloji aktiv qida maddələrinin emalına və dövriyyəsinə həmin maddələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Qanunu 26.1-ci maddəsinə əsasən dövlət qeydiyyatı aparıldıqdan sonra icazə verilir.

12.6. Bioloji aktiv qida maddələrinin emalı və dövriyyəsinə dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 13. Zənginləşdirilən (fortifikasiya olunan) qida məhsullarının təhlükəsizliyinə dair tələblər**

13.1. Qida məhsulları zənginləşdirilə (fortifikasiya oluna) bilər. Qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya olunması) üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən istifadəsinə yol verilən vitaminlərdən və mineral komplekslərindən istifadə olunmalıdır.

13.2. Zənginləşdirmə metodları və zənginləşdirmə (fortifikasiya) prosesində istifadə olunan material və məmulatlar qida təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

13.3. Qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya) qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 14. Genetik modifikasiya olunmuş yem məhsullarına dair tələblər**

14.1. Azərbaycan Respublikasının ərazisində siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən genetik modifikasiya olunmuş yem məhsullarının, tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan yem məhsullarının və tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən istehsal edilən inqredientlər olan yem məhsullarının emalına, dövriyyəsinə və onlardan istifadə olunmasına

həmin məhsullar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyatda alındıqdan sonra icazə verilir. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçməmiş genetik modifikasiya olunmuş yem məhsulları, tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan yem məhsulları və tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən istehsal edilən inqredientlər olan yem məhsullarının emalı və dövriyyəsi qadağandır.

14.2. Genetik modifikasiya olunmuş yem məhsulları bu Qanunun 26-cı maddəsinə əsasən qeydiyyata alınması üçün aşağıdakı tələblərə cavab verməlidir:

14.2.1. insan həyatına və sağlamlığına, heyvan və bitki sağlamlığına və ətraf mühitə mənfi təsiri etməməli;

14.2.2. istifadəçini çaşdırmamalı;

14.2.3. heyvanların normal qidalanması üçün əvəz etdiyi məhsullardakı zəruri inqrediyentlərə malik olmalıdır.

14.3. Azərbaycan Respublikasının ərazisində genetik modifikasiya olunmuş yem məhsullarının, tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan yem məhsullarının və tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən istehsal edilən inqrediyentlər olan yem məhsullarının qanunsuz ilkin istehsalı, emalı və dövriyyəsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

**Maddə 15. İçməli suyun (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə edilən suyun təhlükəsizliyinə dair tələblər**

15.1. İçməli su (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə edilən su qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda müəyyən olunan tələblərə uyğun olmalıdır.

15.2. İçməli suyun (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə edilən suyun qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğuna nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

15.3. Təbii mineral suların istifadəsinə həmin sular müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 26.1-ci maddəsinə əsasən dövlət qeydiyyatına alındıqdan sonra yol verilir.

15.4. İçməli suyun (qablaşdırılmış) təhlükəsizliyinə dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 16. İlkin istehsal məhsullarının təhlükəsizliyinə dair tələblər**

16.1. İlkin istehsalla məşğul olan qida biznesi subyektləri istehsal etdikləri məhsulların təhlükəsizliyinin təmin edilməsi üçün aşağıdakı tədbirləri həyata keçirməlidirlər:

16.1.1. ilkin istehsal məhsullarının təhlükəsizliyinə təhlükə yarada bilən ətraf mühit amillərinin mümkün mənfi təsirlərindən kənar ərazilərdə fəaliyyət göstərməli;

16.1.2. ilkin istehsalla məşğul olan qida biznesi subyektləri istehsal etdikləri ilkin istehsal məhsullarının hava, torpaq, su, yem məhsulları, baytarlıq preparatları, aqrokimyəvi maddələr və bitki mühafizəsi vasitələri ilə çirklənməsinin qarşısını almaq üçün tədbirlər həyata keçirməli;

16.1.3. insanların qidalanması üçün aşkar yararsız olan məhsulları ayırmaq üçün onların çeşidlənməsini təşkil etməli və belə məhsulların sanitariya normalarına uyğun olaraq utilizasiyasını, yaxud məhv edilməsini təmin etməli;

16.1.4. ilkin istehsalla əlaqəli olan infrastrukturu, saxlama anbarlarını və digər

obyektləri, ilkin istehsal məhsulu ilə təmasda olan avadanlıqları, konteynerləri, nəqliyyat vasitələrini və digər daşıycıları təmiz saxlamalı və dövri olaraq dezinfeksiya etməli;

16.1.5. kəsim üçün aparılan heyvanların təmizliyini təmin etməli;

16.1.6. ilkin istehsal zamanı yaranan tullantıların qida məhsulunu çirkəndirməsinin qarşısını almalı və zərərli maddələrin etibarlı və təhlükəsiz saxlanmasını təmin etməli;

16.1.7. qida vasitəsilə yoluxucu xəstəliklərin insanlara keçməsinin qarşısının almalı və belə hallar aşkarlandıqda dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməsini təmin etməli;

16.1.8. heyvanlardan, bitkilərdən, heyvan və bitki mənşəli məhsullardan götürülən nümunələr üzərində aparılmış analizlərin nəticələrini öz fəaliyyətində nəzərə almalı;

16.1.9. qida əlavələrindən, baytarlıq preparatlarından, bitki mühafizə vasitələrindən və aqrokimyəvi maddələrdən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun istifadə etməlidir.

16.2. İlkin istehsala dair sanitar-gigiyenik tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 17. Qida və yem məhsullarının emalı zamanı onların təhlükəsizliyinə dair tələblər**

17.1. Qida və yem məhsullarının emalı zamanı qida məhsullarının təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən qida xammalından, inqrediyentlərdən və dövlət qeydiyyatından keçmiş qida və yem əlavələrindən istifadə olunmalıdır.

17.2. Qida və yem məhsullarının emalı ilə məşğul olan qida biznesi subyektləri qida obyektlərində HACCP prinsiplərinə əsaslanan prosedurları tətbiq etməli və qida təhlükəsizliyinə daxili nəzarət sisteminə malik olmalıdırlar.

17.3. Qida və yem məhsullarının emalı, saxlanması, satışı üçün istifadə edilən binaların, habelə yardımçı və sanitar-məişət binalarının avadanlığı, ərazisi, su təchizatı, kanalizasiyası, qızdırılması, ventilyasiyası (havalandırılması), işıqlandırılması və işçi heyətinin iş şəraiti qida təhlükəsizliyinə, həmçinin sanitariya, əmək, ekologiya, şəhərsalma və tikinti, yanğın təhlükəsizliyinə dair qanunvericiliyin müəyyən etdiyi tələblərə uyğun olmalıdır.

17.4. Qida obyektlərində HACCP prinsiplərininə əslanan prosedurlar qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

17.5. Qida məhsullarının emalı ilə bağlı ekoloji tələblərin qiymətləndirilməsi “Ətraf mühitin mühafizəsi haqqında” və “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

**Maddə 18. Qida məhsullarının qablaşdırılması, markalanması və etiketlənməsi zamanı onların təhlükəsizliyinə dair tələblər**

18.1. Qida məhsulları qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olaraq onların dövriyyəsi zamanı təhlükəsizliyini təmin edə biləcək üsullarla qablaşdırılmalıdır.

18.2. Qida məhsullarının markalanması və etiketlənməsi aşağıdakı qaydalara uyğun həyata keçirilməlidir:

18.2.1. alıcıya qida məhsullarının qida və enerji dəyəri, tərkibi, miqdarı, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergentlər, mənşəyi, istehsal üsulu və istifadə qaydaları barədə dolğun məlumatlar verilməlidir;

18.2.2. məhsulların markalanması və etiketlənməsi dəqiq, aydın, istehlakçılar üçün tam başa düşülən tərzdə həyata keçirilməlidir;

18.2.3. qida məhsullarına xas olmayan təsir və ya xassələrin onlara aid edilməsi istisna olunmalıdır;

18.2.4. eynixassəli oxşar qida məhsullarının xüsusi xassələrə malik olması haqqında yanlış məlumat verməklə istehlakçıların aldadılmasına yol verilməməlidir;

18.2.5. qanunvericiliklə müəyyən olunmuş hallarda təbii mineral sular və xüsusi təyinatlı qida məhsulları istisna olmaqla hər hansı bir qida məhsulunun etiketində həmin məhsulun insan xəstəliklərinin qarşısını alması, müalicəvi xüsusiyyətlərə malik olması haqqında məlumatlar verilməməlidir;

18.2.6. kimyəvi və bioloji preparatlarla işlənilmiş kənd təsərrüfatı məhsullarının taraları üzərində müvafiq xəbərdarlıq yazıları və nişanları olmalıdır.

18.3. Qablaşdırılmış və etiketlənmiş qida məhsullarına əmtəə nişanları və ştrix kodlar vurula bilər.

18.4. Azərbaycan Respublikasına idxal olunmuş və Azərbaycan Respublikasında emal olunan yem məhsullarının tərkibində genetik modifikasiya olunmuş orqanizmlərin mövcud olduğu hallarda həmin malların etiketlərində genetik modifikasiya olunmuş orqanizmlər haqqında tam məlumat əks etdirilməlidir.

18.5. Azərbaycan Respublikasına idxal edilən qida məhsullarının üzərindəki etiketlər və adlar, məhsulun tərkibi və istifadəyə yararlılıq müddəti, məhsuldan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərdə olarsa, onların Azərbaycan dilinə tərcüməsi də təmin edilməlidir.

18.6. Qida məhsullarının qablaşdırılması, markalanması və etiketlənməsinə dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 19. Qida məhsullarının saxlanması və daşınması zamanı onların təhlükəsizliyinə dair tələblər**

19.1. Qida məhsullarının saxlanması və daşınması onların təhlükəsizliyini təmin edən və ilkin xüsusiyyətlərini qoruyan şəraitdə, qida təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən olunmuş tələblərə uyğun həyata keçirilməlidir.

19.2. Qida məhsulları qida təhlükəsizliyinə dair texniki normativ hüquqi aktların tələblərinə uyğun xüsusi quraşdırılmış yerlərdə, tikililərdə və qurğularda saxlanılmalıdır.

19.3. Qida məhsullarının daşınması xüsusi olaraq bu məqsəd üçün nəzərdə tutulmuş, yaxud bu məqsədin tələblərinə uyğunlaşdırılmış, qida məhsuluna dair gigiyenik və temperatur tələblərini təmin edən nəqliyyat vasitələrində daşınmalıdır.

**Maddə 20. Qida məhsullarının satışı və istehlakı zamanı onların təhlükəsizliyinə dair tələblər**

20.1. Qida məhsullarının yalnız qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda müəyyən olunmuş tələblərə uyğun ticarət (xidmət) obyektlərində satışına yol verilir.

20.2. Qida məhsullarının istehlak olunduğu ictimai iaşə və xidmət obyektləri qida təhlükəsizliyi sahəsində qanunvericilikdə nəzərdə tutulmuş tələbləri yerinə yetirdikdən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunduqdan və ya qeydiyyatdan keçdikdən sonra qida məhsullarını istehlakçılara təqdim edə bilərlər.

**Maddə 21. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarının təhlükəsizliyinə dair tələblər**

21.1. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarının təhlükəsizliyi Azərbaycan Respublikasında qida və yem məhsullarının təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən olunmuş tələblərə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə əsasən həmin tələblərə ekvivalent hesab edilmiş digər dövlətlərin qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

21.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixracatçı ölkələrdə yayılmış xəstəliklərdən və zərərvericilərdən, habelə onların insan həyatına və sağlamlığına, heyvan və bitki sağlamlığına yaratdığı təhlükə riskinin səviyyəsindən asılı olaraq həmin ölkələrdən idxal olunmuş qida və yem məhsullarına münasibətdə fərqli tələblər müəyyənləşdirə bilər.

21.3. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qida və yem məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulları ilkin istehsal və emal edən qida obyektləri onlara cavabdeh qida biznesi subyektlərinin müraciəti əsasında qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya Azərbaycan Republikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən, ixracatçı ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq edilmiş və ya qeydiyyata alınmış olmalıdır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq olunmuş və ya qeydiyyata alınmış qida obyektləri və reyestrdən çıxarışları elektron qaydada gömrük orqanına təqdim edir.

21.4. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qida və yem məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün ixracatçı ölkənin səlahiyyətli orqanı tərəfindən Azərbaycan Respublikasının tələbləri nəzərə alınmaqla verən qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən müvafiq sənədə (sertifikata) malik olmalıdır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixracatçı ölkələrin səlahiyyətli orqanları tərəfindən verilən qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərin (sertifikatların) nümunələrini elektron qaydada gömrük orqanına verir.

21.5. Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsulu idxal etmək istəyən idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi həmin məhsullar gömrük ərazisinə gətirilməzdən ən azı 3 iş günü əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada bildiriş göndərməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qəbul etdiyi bildiriş əsasında ixracatçı ölkələrdə yayılmış xəstəlikləri və zərərvericiləri və onların insan həyatına və sağlamlığına, heyvan və bitki sağlamlığına yaratdığı təhlükə riskinin nəzərə almaqla idxalın dayandırılması və ya məhdudlaşdırılması ilə bağlı qərar qəbul etdikdə bu haqda bildiriş göndərən idxalatçını və ya onun səlahiyyətli nümayəndəsini, habelə gömrük orqanını bildiriş qəbul etdiyi tarixdən etibarən 1 iş günü ərzində elektron qaydada məlumatlandırmalıdır. Qida və yem məhsullarının gömrük sərhəddindən keçirilməsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) idxalını məqbul hesab etdiyi qida və yem məhsulları üzrə bildirişləri elektron qaydada gömrük orqanına elektron qaydada göndərir.

21.6. Xarici dövlətlərin qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktlarının Azərbaycan Respublikasının qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarına, habelə ixracatçı ölkələrin səlahiyyətli orqanları tərəfindən aparılan təsdiq və qeyydiyyatın müvafiq icra hakimiyyəti orqanının müəyən etdiyi orqanın (qurumun) aparılan təsdiq və

qeydiyyata ekvivalentliliyin qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

21.7. Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının idxalına dair tələblər və idxalı qaydaları bu Qanunun və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin müddəaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 22. Azərbaycan Respublikasından ixrac və ya təkrar ixrac edilən qida və yem məhsullarının təhlükəsizliyinə dair tələblər**

22.1. İxrac və ya təkrar ixrac edilən qida və yem məhsulları Azərbaycan Respublikasının qida təhlükəsizliyinə dair qanunvericiliyinin, idxalatçı ölkənin qida məhsulları sahəsində milli qanunvericiliyinin, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin prinsip və tələblərinə uyğun olmalıdır.

22.2. Xarici ölkələrə ixrac edilən qida məhsulları idxalçı ölkələr tələb etdiyi hallarda, bu Qanunun 27.1-ci maddəsinə əsasən verilmiş sağlamlıq sertifikatına malik olmalıdır.

22.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ərazisində xüsusi təhlükəli insan və heyvan xəstəliklərinin, zərərverici orqanizmlərin yayılması səbəbindən xarici ölkələrdən idxal olunan qida və yem məhsullarına dair qadağa və digər məhdudlaşdırıcı tədbirlər barədə qərarların qəbul edildiyi hallar istisna olmaqla, malların daşındığı nəqliyyat vasitələrinin yük yerləri üzərində gömrük plombları toxunulmaz və bütöv olduqda, o cümlədən məhsullara dair beynəlxalq təşkilatların və ya beynəlxalq sazişlərin tövsiyyələrinə əsasən tərtib olunmuş nümunəvi formaya uyğun sənədlər təqdim edildikdə, qida və yem məhsullarının Azərbaycan Respublikasının ərazisindən tranzit daşınması icazə verilir.

**Maddə 23. Qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida biznesi subyektlərinin əməkdaşlarına dair tələblər**

23.1. Qida biznesi subyektlərinin qida məhsulları ilə bilavasitə təmasda olan əməkdaşları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada ilkin və dövri tibbi müayinələrdən keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar.

23.2. Qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə ilkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə laboratoriya tədqiqatlarının mənfi nəticələri alınanadək müxtəlif yolxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların buraxılması qadağandır.

23.3. Qida biznesi subyektlərinin qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası prosesləri ilə məşğul olan əməkdaşları fəaliyyətləri zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə və şəxsi gigiyena qaydalarına əməl etməlidirlər.

**Maddə 24. Qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərində istifadə olunan maşın və avadanlıqlara və qida məhsulları ilə təmasda olan material və məmulatlara dair tələblər**

24.1. Qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası mərhələlərində istifadə olunan material və məmulatlar aşağıdakı tələblərə cavab verməlidir:

24.1.1. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olmalı;

24.1.2. yalnız təyinatı üzrə istifadə edilməlidir.

24.2. Nəqliyyat tutumlarının (sisternlər, tankerlər və s.), boru kəmərlərinin, nasosların, şlanqların, maşınların, nəqliyyat vasitələrinin, avadanlığın və aparatların qida məhsulları ilə təmasda olan bütün hissələri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara və texniki relqamentlərə uyğun olaraq, tətbiqinə icazə verilmiş materiallardan hazırlanmalıdır.

24.3. Qida məhsulları ilə təmasda olan material və məmulatlara dair tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

## 6-cı fəsil
## Qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmə

### Maddə 25. Qida obyektlərinin qeydiyyatı və təsdiqi

25.1. Azərbaycan Respublikasının ərazisində qida və yem məhsulların ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida obyektləri (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən, qeydiyyatı tələb olunmayan qida obyektləri istisna olmaqla) həmin obyektlərə cavabdeh qida biznesi subyektlərinin müraciəti əsasında qeydiyyat üçün tələb olunan məlumatlar təqdim edildiyi halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilmədən 10 iş günü müddətində qeydiyyata alınır.

25.2. Qeydiyyata alınmış obyektlər, onlara cavabdeh qida biznesi subyektləri elektron reyestrə daxil edilir və həmin subyektlərə reyestrdən elektron və ya yazılı çıxarış verilir.

25.3. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilmədən qeydiyyata alınan qida obyektlərinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu dövlət nəzarəti tədbirləri çərçivəsində qiymətləndirilir.

25.4. Azərbaycan Respublikasının ərazisində qida təhlükəsizliyi baxımından qeydiyyata alınmamış qida obyeklərində (bu Qanunun 25.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş qida obyektləri istisna olmaqla) qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası qadağandır.

25.5. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qida və yem məhsullarına aid olan qida obyektləri həmin obyektlərə cavabdeh qida biznesi subyektlərinin müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 30 iş günü müddətinə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunur və ya təsdiqdən imtina edilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qida obyektləri qeydiyyata alınır və onlara reyestrdən çıxarış verilir.

25.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan siyahıya əsasən təsdiqi nəzərdə tutulan qida obyektlərinin təsdiq olunmadan qida və yem məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi və utilizasiyası qadağandır.

25.7. Təsdiqi nəzərdə tutulan qida obyektlərində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan qiymətləndirmələrin nəticələrinə əsasən uyğunsuzluqlar aşkar edildikdə, həmin obyektlər aşkar edilmiş uyğunsuzluqların xüsusiyyəti və yaratdığı riskin səviyyəsi nəzərə alınmaqla uyğunsuzluqların müəyyən edilmiş müddət ərzində aradan qaldırılması şərti ilə təsdiq oluna bilər. Aşkar edilmiş uyğunsuzluqlar

müəyyən edilmiş müddət ərzində aradan qaldırılmadıqda həmin obyektlərin təsdiqi ləğv olunur. Bu obyektlərdə uyğunsuzluqların aradan qaldırılması üçün verilmiş müddət ərzində əlavə nəzarət tədbirləri həyata keçirilə bilər.

25.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Qida obyektlərinin qeydiyyata alınmasına və ya təsdiq olunmasına və onlara reyestrdən çıxarış verilməsinə görə qida biznesi subyektlərindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur. Qida obyektlərinin təsdiq olunması məqsədi ilə aparılan qiymətləndirmələr zamanı götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi üçün qida biznesi subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

25.9. Qeydiyyata alınmış qida obyektlərinin fəaliyyəti dövründə qeydiyyat mərhələsində verilmiş məlumatlarda dəyişiklik olduqda, habelə qida obyektinə cavabdeh qida biznesi subyekti və obyektin fəaliyyət sahəsi dəyişdikdə, qida obyekti öz fəaliyyətini dayandırdıqda, həmin obyektlərə cavabdeh qida biznesi subyektləri bu haqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) məlumatlandırmalıdırlar.

25.10. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə cavab verməyən, fəaliyyətini birdəfəlik dayandıran və ya bir ildən artıq fəaliyyətsiz qalan qida obyektlərinin təsdiqi və qeydiyyatı ləğv olunur.

**Maddə 26. Məhsulların dövlət qeydiyyatı**

26.1. Aşağıdakı məhsullar Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılmazdan əvvəl onların təhlükəsizliyini, minimum keyfiyyətini, xüsusi etiketlənmə və digər tələblərə uyğunluğunu müəyyən etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tədqiqi (sınağı) aparılır və dövlət qeydiyyatına alınır:

26.1.1. xüsusi təyinatlı qida məhsulları;

26.1.2. yeni növ qida məhsulları;

26.1.3. genetik modifikasiya olunmuş yem məhsulları;

26.1.4. qida və yem əlavələri;

26.1.5. bioloji aktiv qida maddələri;

26.1.6. təbii mineral sular;

26.1.7. qida məhsulları ilə təmasda olan material və məmulatlar;

26.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən digər məhsullar.

26.2. Dövlət qeydiyyatına alınmış məhsullar reyestrə daxil edilir və qida biznesi subyektlərinə reyestrdən çıxarış verilir.

26.3. Dövlət qeydiyyatı tələb olunan, lakin qeydiyyata alınmamış məhsulların dövriyyəsi qadağandır.

26.4. Məhsulların dövlət qeydiyyatının aparılmasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur. Məhsulların qeydiyyatının aparılması məqsədi ilə götürülmüş nümunələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqinin aparılması üçün qida biznesi subyektlərindən müvafiq icra

hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

### Maddə 27. Qida məhsullarının sertifikatlaşdırılması

27.1. Azərbaycan Respublikasının ərazisindən xarici ölkələrə ixrac edilən qida məhsullarına idxalçı ölkələr tələb etdiyi hallarda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idxalçı ölkələrin tələbləri də nəzərə alınmaqla sağlamlıq sertifikatı verilir.

27.2. İxrac olunan məhsullara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sağlamlıq sertifikatı qida məhsulunun qida təhlükəsizliyi göstəriciləri ilə yanaşı, heyvan mənşəli məhsullar üçün heyvan sağlamlığı göstəricilərinə uyğunluğunu da təsdiq edir.

27.3. Sağlamlıq sertifikatının verilməsinə görə "Dövlət rüsumu haqqında"Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur. Sağlamlıq sertifikatının verilməsi məqsədi ilə götürülmüş nümunələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqinin aparılması üçün qida biznesi subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

27.4. Sağlamlıq sertifikatı kağız və elektron formada verilir. Sağlamlıq sertifikatının qüvvədə olma müddəti üç aydır və bu müddət ərzində sertifikat verilmiş qida məhsulu ixrac edilməlidir.

### Maddə 28. Qida və yem məhsullarının izlənilməsi

28.1. Qida biznesi subyektləri onları qida və yem məhsulları ilə təchiz edən və ya onların qida və yem məhsulları ilə təchiz etdiyi subyektləri müəyyən etməyə imkan verən izləmə sisteminə və qeydiyyat prosedurlarına malik olmalı, bu məqsədlə bu Qanuna, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən olunan sənədlərin kağız üzərində və (və ya) elektron daşıyıcılarda tərtib olunmasını və saxlanılmasını təmin etməli və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi əsasında həmin sənədləri ona təqdim etməlidirlər.

28.2. Qida biznes subyektləri bazara yerləşdirdikləri və ya yerləşdirilməsi nəzərdə tutulan qida və yem məhsulunun asanlıqla izlənilməsini təmin etmək məqsədi ilə həmin məhsulun qida təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada etiketlənməsini, kodlaşdırılmasını və tələb olunan sənədlərlə müşayiət olunmasını təmin etməlidirlər.

## 7-ci fəsil
## Qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarəti

### Maddə 29. Qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətinə dair ümumi tələblər

29.1. Qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən məhsulun daşıdığı riskin səviyyəsi nəzərə alınmaqla qida zəncirinin bütün mərhələlərində həyata keçirilir.

29.2. Qida təhlükəsizliyi sahəsində plan üzrə yoxlamalar “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilmiş illik yoxlama planı əsasında həyata keçirilir.

29.3. Qida təhlükəsizliyi sahəsində yoxlamalar “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qida biznesi subyektlərini əvvəlcədən məlumatlandırmadan həyata keçirilir.

29.4. Qida təhlükəsizliyi sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan yoxlamalar zamanı götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi üçün qida biznesi subyektlərindən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

**Maddə 30. Qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dair tələblər**

30.1.Qida təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət nəzarətini həyata keçirərkən aşağıdakılara əməl etməlidir:

30.1.1. dövlət nəzarətinin qanunvericiliyə uyğun həyata keçirilməsini təmin etməli;

30.1.2. dövlət nəzarətinin həyata keçirilməsi zamanı şəffaflıq, səmərəlilik, bitərəflilik, maraqların toqquşması hallarının yolverilməzliyi, qida obyektlərinin fəaliyyətinə tələb olunan hədd çərçivəsində müdaxilə prinsiplərini tətbiq etməli;

30.1.3. dövlət nəzarətinin həyata keçirərkən qida biznesi subyektlərinin fəaliyyətinə yersiz müdaxilələrə yol verməməli, nəzarət tədbirləri çərçivəsində aşkarlanmış pozuntuların aradan qaldırılmasında qida biznesi subyektlərinə dəstək göstərməli və məcburi tələblərin pozulmasının qarşısının alınması ilə bağlı profilaktik tədbirlər həyata keçirməli;

30.1.4. öz sahəsində müvafiq səriştəsi olan əməkdaşlara malik olmalı, onların bilik və bacarıqlarının artırılması üçün müntəzəm təlimlər təşkil etməli;

30.1.5. dəqiq sınaq və analizlər aparmağa imkan verən laboratoriyalara, avadanlıqlara və nəzarət üçün tələb olunan digər vasitələrə malik olmalı və ya belə vasitələrin əlçatan olmasını təmin etməli;

30.1.6. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlamaların aparılması, nəticələrinin yazılı və elektron formada rəsmiləşdirilməsi, arxivləşdirilməsi və müxtəlif məqsədlər üzrə istifadəsi üçün müvafiq sistemə və prosedurlara malik olmalı;

30.1.7. yoxladığı obyektlərdən topladığı məlumatların məxfiliyini təmin etməli və yoxlama nəticələrinin ictimaiyyətə açıqlanması zamanı yalnız məxfi olmayan məlumatlardan istifadə etməlidir.

**Maddə 31. Qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarəti tədbirləri**

31.2. Qida təhlükəsizliyinə dövlət nəzarəti tədbirləri aşağıdakılardan ibarətdir:

31.2.1. Qida və yem məhsullarının təhlükəsizliyi üzrə vəziyyətin öyrənilməsi və riskin qiymətləndirilməsi məqsədilə qida obyektlərində monitorinqlərin aparılması;

31.2.2. qida obyektlərində qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı idarəetmə sistemlərinin (HACCP və ya ona ekvivalent digər sistemlər) tətbiqi vəziyyətinin auditi;

31.2.3. aşağıdakıların yoxlanılması:

31.2.3.1. qida obyektləri, maşın və avadanlıqlar, daşınma vasitələri və digər infrastruktur obyektləri;

31.2.3.2. qida və yem məhsulları, qida və yem əlavələri, qida xammalı, yarımfabrikatlar, inqrediyentlər və qida emalında istifadə olunan digər maddələr;

31.2.3.3. qida məhsulları ilə təmasda olan material və məmulatlar;

31.2.3.4. qida məhsulunda qalıqlar və çirkləndirici maddələr;

31.2.3.5. marklanma və etiketləmə.

31.2.4. yazılı materialların və sənədlərin araşdırılması;

31.2.5. qida məhsulları ilə təmasda olan işçilərin tibbi müayinəsi, sağlamlıq və gigiyenik vəziyyətinin qiymətləndirilməsi;

31.2.6. qida obyektlərində çalışan işçilərlə müsahibələrin aparılması;

31.2.7. qida və yem məhsulundan nümunələrin götürülməsi və tədqiqi (sınağı);

31.3. Qida təhlükəsizliyinə dövlət nəzarəti aparılarkən qida biznesi subyekti ilə bağlı aşağıdakılar nəzərə alınmalıdır:

31.3.1. bitki, heyvan, qida və yem məhsulları ilə bağlı müəyyən edilmiş risklər;

31.3.2. qida biznes subyektlərinə dair qeydiyyat, təsdiq, sertifikatlaşma və əvvəlki nəzarət tədbirləri çərçivəsində toplanmış məlumatlar və aparılmış sınaqların nəticələri;

31.3.3. qida biznes subyektlərinin cavabdeh olduqları qida obyektlərində qida təhlükəsizliyi tələblərinin yerinə yetirilməsinə dair apardıqları daxili nəzarət (audit) tədbirlərinin nəticələrinə dair qeydlər;

31.3.4. qida və yem məhsulunun qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğunluğunun qiymətləndirilməsi üçün digər məlumatlar.

31.4. Dövlət nəzarəti tədbirləri nəticəsində pozuntular aşkarlandıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin pozuntuların xarakterini, yaratdığı riskləri və aradan qaldırılma xüsusiyyətini nəzərə alaraq "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məhdudlaşdırıcı tədbirləri tətbiq edir.

**Maddə 32. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğun olmayan və təhlükəli qida və yem məhsullarının geri çağrılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi**

32.1. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərərinə uyğun olmayan qida və yem məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi və ya qida biznes subyektlərinin öz təşəbbüsü əsasında həmin subyektlər tərəfindən istehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılmalı və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) bu haqda dərhal məlumatlandırılmalıdır.

32.2. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğun olmayan və təhlükəli qida məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi əsasında geri çağrılması nəzərdə tutulduqda və bu tələb qida biznesi subyektləri tərəfindən verilmiş müddət ərzində icra edilmədikdə müvafiq icra hakimiyyəti

orqanının müəyyən etdiyi orqanı (qurumu) həmin məhsulların istehlakçılardan, bazardan və digər satış obyektlərindən yığışdırılması ilə bağlı qərar qəbul edir və həyata keçirir.

32.3. İstehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılmış və ya yığışdırılmış qida və yem məhsulu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məhsulun utilizasiya və ya məhv edilməsi haqqında qərar verilənədək digər qida məhsullarına təhlükə yaratmayan və istehlakçıların həmin məhsullarla təmasına imkan verməyən yerlərdə saxlanmalıdır.

32.4. İstehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılmış və yığışdırılmış qida və yem məhsulunun utilizasiyası və ya məhv edilməsi barədə qərar həmin qida və yem məhsulunun tədqiqi (sınağı) əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

32.5. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğun olmayan (qanunvericiliyə uyğun markalanmayan, dövlət qeydiyyatdan keçməyən, saxtalaşdırılmış olan və qanunvericiliyin qida məhsulunun təhlükəsizliyinə aid olunmayan digər tələblərinə cavab verməyən), lakin aparılmış tədqiqin (sınağın) nəticələrinə əsasən insan həyatı və sağlamlığı və heyvan sağlamlığı üçün təhlükəsiz hesab edilən qida və yem məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında utilizasiya edilə bilər.

32.6. Qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə cavab verməyən və aparılmış tədqiqin (sınağın) nəticələrinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən insan və heyvan sağlamlığı üçün təhlükəli hesab edilən qida və yem məhsulları qanunvericikdə nəzərdə tutulmuş qaydada məhv edilməlidir.

32.7. Uyğun olmayan və təhlükəli məhsulların tədqiqi (sınağı), saxlanması, daşınması, utilizasiyası və ya məhv edilməsi ilə bağlı xərclər həmin məhsula cavabdeh olan qida biznesi subyektlərinin vəsaiti hesabına ödənilir.

32.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qərara əsasən utilizasiya və ya məhv edilən qida və yem məhsullarının insan həyatı və sağlamlığı və heyvan sağlamlığı üçün təhlükə yaratmaması üçün həmin məhsulların utilizasiya və ya məhv edilməsi prosesinə qida təhlükəsizliyi sahəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada nəzarət edilir.

**Maddə 33. İdxal olunan qida və yem məhsullarına dövlət nəzarəti**

33.1. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətinin təmin olunması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qida məhsullarının risklərin qiymətləndirilməsinin nəticələri əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət nəzarəti tədbirləri həyata keçirir.

33.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarına nəzarət tədbirləri aşağıdakılardan ibarətdir:

33.2.1. qida və yem məhsulunun Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə icazə verilməsi üçün əsas olan və idxal olunmuş məhsul partiyasını müşaiyət edən qida təhlükəsizliyi sahəsində qanunvericiliklə tələb olunan sənədlərin, sertifikatların və digər hüquqmüəyyənedici sənədlərin mövcudluğunun və düzgünlüyünün yoxlanılması (bundan sonra - sənəd yoxlaması);

33.2.2. idxal olunmuş qida və yem məhsulu partiyasının tərkibinin, etiketinin, markasının, daşındığı nəqliyyat vasitəsinin həmin məhsula verilən sertifikatda, sınaq aktında

və digər sənədlərdə göstərilən məlumatlarla uyğunluğunun yoxlanılması (bundan sonra - vizual yoxlama);

33.2.3. idxal olunmuş qida və yem məhsulu nümunəsinin sınağı, onu daşıyan nəqliyyat vasitəsinin, saxlanma temperaturunun və qida təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyən edilmiş digər parametrlərinin yoxlanması (bundan sonra - fiziki yoxlama).

33.3. Sənəd yoxlaması Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bütün qida və yem məhsullarına, vizual və fiziki yoxlama isə məhsulun risk səviyyəsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məhsullara şamil edilir. Fiziki yoxlama çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi üçün qida biznesi subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

33.4. Gömrük orqanı tərəfindən idxal olunmuş qida və yem məhsullarına “Yaşıl dəhliz” və digər buraxılış sistemləri tətbiq etmək məqsədilə məhsulların idxalatçılarının risk qruplaşdırılması aparılarkən ilk növbədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) həmin idxalatçılara dair təqdim etdiyi risk informasiyası əsas kimi götürülür.

33.5. Sənəd, vizual və fiziki yoxlamalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən gömrük rəsmiləşdirilməsinin aparıldığı gömrük sahəsində yerləşən qida təhlükəsizliyi nəzarəti məntəqələrində və ya idxalatçıların mallarının saxlanc yerlərində həyata keçirilir.

33.6. Aparılan yoxlama tədbirləri nəticəsində Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsulu qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə cavab verdikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada idxala icazə aktı tərtib edir və məhsulun sərbəst dövriyyəyə buraxılması üçün gömrük orqanına və idxalatçıya təqdim edir. İdxala icazə aktının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

33.7. Aparılan yoxlama tədbirləri nəticəsində Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsulları qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə cavab vermədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin qida və yem məhsulunun bu Qanunun 32.4-cü maddəsinə uyğun olaraq utilizasiyası və ya bu Qanunun 11-ci maddəsinə əsasən təhlükəli hesab olunan qida və yem məhsulunun Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv edilməsi haqqında qərar qəbul edilir və gömrük orqanına bu barədə bir gün müddətində kağız və ya elektron formada məlumat verilir.

33.8. Bu Qanunun 33.6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş qida və yem məhsullarını 10 gün müddətində idxalatçı tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılmalıdır.

33.9. Bu Qanunun 33.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş təhlükəli qida və yem məhsulları Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılmadıqda, həmin qida və yem məhsullarının məhv edilməsi

haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qərar qəbul olunur və bu qərar əsasında həmin qida və yem məhsulları məhv edilir. İdxalatçı qida və yem məhsullarının məhv edilməsi haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilmiş qərardan inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

**Maddə 34. Dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə istifadə olunan sınaq və istinad laboratoriyaları**

34.1. Dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə istifadə olunan sınaq laboratoriyaları "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu qaydada akkreditasiyadan keçirilməlidir.

34.2. Müxtəlif laboratoriyalarda aparılan eyni sınaq nəticələri arasında müqayisənin aparılması və sınaq nəticələrinə dair tərəflər arasında yaranan mübahisələrin həll edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində milli istinad laboratoriyaları yaradılır.

**Maddə 35. Qida təhlükəsizliyi sahəsində böhran vəziyyətlərinin idarə edilməsi**

35.1. Yerli və idxal olunmuş qida və yem məhsulları insan sağlamlığı və həyatı, heyvan sağlamlığı və ətraf mühit üçün ciddi təhlükə yaratdıqda və həmin təhlükənin geniş yayılma riski olduqda bu hal böhran vəziyyəti hesab edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən böhran vəziyyəti elan edilir.

35.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən böhran vəziyyətinin idarə edilməsi məqsədi ilə qabaqlayıcı, məhdudlaşdırıcı və qadağanedici tədbirləri həyata keçirilir.

35.3. Qida və yem məhsulları ilə bağlı böhran vəziyyəti yarandıqda müvafiq dövlət orqanları, bələdiyyələr, qida biznesi subyektləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) bu haqda dərhal məlumatlandırmalıdırlar.

35.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aidiyyəti dövlət orqanlarının və qurumlarının iştirakı ilə böhran vəziyyətinin idarə edilməsinə dair plan hazırlamalı və aparılmış sınaq təcrübələri əsasında onu yeniləməlidir. Planda qida və yem məhsulunun insan həyatı və sağlamlığı, heyvan sağlamlığı və ətraf mühit üçün yaratdığı təhlükə riskinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üçün görüləcək tədbirlər və həmin tədbirlərə cavabdeh subyektlər əhatə olunmalıdır.

35.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qida və yem məhsullarının yaratdığı təhlükənin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması ilə bağlı gördüyü tədbirlər səmərə vermədikdə həmin riskin mənbəyi olan məhsulların ilkin istehsalı, emalı və dövriyyəsinin məhdudlaşdırılması, qadağan edilməsi və ya məhv edilməsi ilə bağlı qərar qəbul edə bilər.

35.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qida çirklənməsi və epidemiya üzrə erkən xəbərdarlıq sistemləri yaradılır.

## 8-ci fəsil
## Qida biznesi subyektlərinin hüquq və vəzifələri

**Maddə 36. Qida biznesi subyektlərin hüquqları**

36.1.Qida biznesi subyektləri aşağıdakı hüquqlara malikdirlər:

36.1.1.qida təhlükəsizliyi sahəsində qanunvericiliklə müəyyənləşdirilmiş tələblərin yerinə yetirilməsi məqsədi ilə dövlət orqanlarından və qurumlarından metodiki köməklik, məsləhət almaq və vəziyyəti qiymətləndirmək üçün dövlət orqanlarına və qurumlarına müraciət etmək;

36.1.3.qida təhlükəsizliyi sahəsində qanunvericilikdə müəyyən edilmiş qaydada təhlükəsizliyi sahəsində normativ hüquqi aktların işlənilib hazırlanmasında iştirak etmək;

36.1.4.qida məhsullarının emalının təhlükəsizliyi tələbləri ilə bağlı proseslər həyata keçirilərkən beynəlxalq idarəetmə sistemlərinin (HACCP və ya ona ekvivalent digər sistemlər) prinsiplərinə əsaslanan prosedurları işləyib hazırlamaq, tətbiq etmək və dəstəkləmək;

36.1.6.qanunvericilikdə nəzərdə tutulan digər hüquqlara malik olmaq.

**Maddə 37. Qida biznesi subyektlərinin vəzifələri**

37.1. Qida biznesi subyektləri aşağıdakı vəzifələri yerinə yetirirlər:

37.1.1. ilkin istehsal, emal, dövriyyə və utilizasiya etdiyi qida məhsulunun təhlükəsizliyini təmin etmək;

37.1.2. qida təhlükəsizliyi sahəsində müəyyən edilmiş tələblərə əməl olunmasına dair vəziyyəti yoxlamaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qida təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən müfəttişlərinin qida obyektlərinə maneəsiz girişinə, obyektə baxışın keçirməsinə və məhsullardan nümunələrin götürməsinə şərait yaratmaq, nəzarət müfəttişlərinin qanunvericiliyə uyğun olaraq tələb etdiyi sənədləri onlara təqdim etmək;

37.1.3. işçilərin ilkin və dövri tibbi müayinəsini, habelə onlara gigiyenik təlimlərin keçirilməsini təmin etmək;

37.1.4. qida məhsullarının emalı və utilizasiyası proseslərində onların hər bir partiyasının təhlükəsizliyinə daxili nəzarəti təmin etmək;

37.1.5. qida məhsullarının dövriyyəsi və utilizasiyası proseslərində təhlükə yaranmasına gətirib çıxarmış pozuntular, bazara yerləşdirilmiş təhlükəli qida və yem məhsulları və yaranmış böhran vəziyyəti haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

37.1.6. təhlükə yaranmasına gətirib çıxarmış pozuntuya yol verildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında təhlükəli qida və yem məhsullarının dövriyyəsini, o cümlədən ilkin istehsalını, emalını və ya onun ayrı-ayrı proseslərini dayandırmaq, həmin məhsulların ticarət obyektlərindən (satışdan), istehlakçılardan geri çağırılmasını və bu haqda istehlakçıların məlumatlandırılmasını, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarları əsasında onların utilizasiyasını və ya məhv edilməsini təşkil etmək;

37.1.7. qida və yem məhsullarının alıcılarına (istehlakçılarına) qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədləri təqdim etmək;

37.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) istehsal və ya emal etdikləri, satdıqları, yaxud utilizasiya etdikləri qida məhsulları ilə bağlı risklərin qarşısının alınmasına, azaldılmasına (məhdudlaşdırılmasına) və aradan qaldırılmasına köməklik göstərmək;

37.1.9. qida məhsullarının ilkin istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi proseslərində onların izlənilməsini təmin etmək, bu məqsədlər üçün tələb olunan

sənədləri saxlamaq və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

37.1.10. qida obyektlərinin və qida məhsullarının təhlükəsizliyinə dair daxili nəzarəti (auditi) həyata keçirmək və nəzarətin nəticələrinin uçotunu aparmaq;

37.1.11. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 9-cu fəsil
## Yekun müddəalar

**Maddə 38. Qida təhlükəsizliyi sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyətə səbəb olur.

**Maddə 39. Qida təhlükəsizliyinə dair tələblərinin pozulmasına görə tətbiq olunan cərimələrdən və Qanunla müəyyən olunmuş digər ödənişlərdən daxilolmalar**

39.1. Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən və bu Qanuna əsasən tutulan dövlət rüsumlarından toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

39.2. Bu Qanuna əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tutulan xidmət haqlarının müvafiq hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) tərəfindən müəyyən edilmiş hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

39.3. Bu Qanunun 39.1 və 39.2-ci maddələrində müəyyən edilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 40. Keçid müddəası**

Qida və yem məhsullarının qida zəncirinin müxtəlif mərhələlərində ənənəvi metodlardan davamlı olaraq istifadəyə imkan yaratmaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) keçid tədbirləri müəyyən edir.

**Maddə 41. Qanunun qüvvəyə minməsi qaydası**

41.1.Bu Qanun 41.2-ci maddə nəzərə alınmaqla, dərc edildiyi gündən altı ay sonra qüvvəyə minir.

41.2. Bu Qanunun 17.2-ci maddəsi "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən iri sahibkarlıq subyekti hesab edilən qida biznesi

subyektləri üçün bu Qanun dərc olunduqdan iki il, orta və kiçik sahibkarlıq subyektləri hesab edilən qida biznesi subyektləri üçün dörd il sonra qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "_____" _ 2018-ci il